# *İmam Əl-Şatibinin*

## İslam hüququnda ali məqsədlər nəzəriyyəsi




BİFİ-nin yığcam nəşrlər silsiləsi

# İMAM ƏL-ŞATİBİNİN
# İslam hüququnda ali məqsədlər nəzəriyyəsi

Əhməd Əl-Raysuni

*Sadələşdirən:*
Alison Leyk

Beynəlxalq İslam Fikri İnstitutu

“İdrak” İctimai Birliyi

Bakı - 2021

**İmam Əl-Şatibinin İslam hüququnda ali məqsədlər nəzəriyyəsi (Azeri)**
*Əhməd Əl-Raysuni*
*BİFİ-nin yığcam nəşrlər silsiləsi*

© "İdrak" İctimai Birliyi
və Beynəlxalq İslam Fikri İnstitutu
1442 (hicri) / 2021 (miladi)
*Paperback* ISBN: 978-9952-459-83-1

**Imam Al-Shatibi's Theory of the Higher Objectives and Intents of Islamic Law (Azeri)**
*Əhməd Əl-Raysuni*
*Books-in-Brief Series*

© The International Institute of Islamic Thought (IIIT)
1434AH / 2013CE
*Paperback* ISBN: 978-1-56564-550-9
IIIT
P.O. Box 669
Herndon, VA 20172, USA
www.iiit.org

Tərcüməçi: Natiq Adilov
Redaktor: Ülvi Babasoy
Bədii və texniki tərtibat: Həsən Həsənov
"İdrak" İctimai Birliyi
Azərbaycan, Bakı ş., Mirəli Seyidov 3138,
korpus D, 1-ci mərtəbə
idrak.org.az

Kitab Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin
icazəsi ilə nəşr olunur (12 fevral 2021-ci il, DK-63/Q)

Bütün hüquqlar qorunur.

## Beynəlxalq İslam Fikri İnstitutunun (BİFİ) yığcam nəşrlər silsiləsi

**BİFİ-nin silsilə nəşrlərinə müvafiq kitabın əsas məğzinin qismən yığcam formada və yenidən dərc edilməsi daxildir. Bu nəşrlər oxuculara müxtəsər şəkildə təqdim edilir. Yığcam və sadə formatda nəşr edilən kitablarda orijinal materiallardan çox diqqətli şəkildə seçilmiş və redaktə edilmiş cümlələr əks olunur. Kitabların dili səlis və aydındır. Burada əsas məqsəd oxucularda mövzuya qarşı maraq oyatmaq və orijinalı tədqiq etməyə yönəltməkdir.**

Dr. Əhməd Əl-Raysuninin **"İmam Əl-Şatibinin (Şatibinin) İslam hüququnda ali məqsədlər nəzəriyyəsi"** kitabı ilk dəfə ərəb dilində nəşr olunmuşdur. 2005 və 2011-ci illərdə isə ingilis dilində çap edilmişdir.

İslam dininin ilk dövrlərinin sona çatması fonunda müsəlman alimlərində belə bir düşüncə formalaşmışdır ki, müsəlmanların gündəlik həyat və fəaliyyətləri ilə İslamın prinsipləri və doktrinaları arasında fərqlər yaranmağa başlayır. Həmin alimlərin düşüncəsinə görə, müsəlmanların Qurana olan bağlılığının yenidən gücləndirilməsi üçün ən münasib metod İslam dininin məqsədlərinin yenidən diqqət mərkəzində saxlanılmasıdır. Həmçinin İslam hüququnun və ya şəriətin müddəalarının səbəblərinin müəyyən edilməsi də vacib bir məqam kimi irəli sürülmüşdür. Alimlərin qənaətinə görə, İslam hüququnda hər bir məsələ ye-

rinə yetirilməsi zəruri olan funksiyanı, həyata keçirilməli olan məqsədi, gizli və ya aşkar olan məramları ehtiva edir. Bütün bunlar da öz növbəsində müsəlmanların haqq yolundan sapmalarının qarşısını alır. Təbii ki, bu məsələlər və ali məqsədlər müəyyən dövrləri əhatə edir, Quran və sünnətdə açıq şəkildə ifadə olunmuşdur. Digər mərhələləri isə zaman və məkan anlayışları kontekstində əhatə edir. Bir sözlə, bu kimi məsələlər alimlərin Quran və sünnətə istinad etmələrini zəruri qılır. Hər bir mövzu və anlayış Quran və sünnətdən əldə edilən biliklər nəticəsində aydınlığa qovuşur.

Bu kitab İslam hüququnun məqsədləri ilə bağlı mühüm nəzəri görüşlərin, eləcə də məqsədlərə əsaslanan hüquq elminin atası sayılan İmam Əbu İshaq Əl-Şatibinin tədqiqatlarının müxtəlif aspektlərdən təqdim edilməsi baxımından olduqca yeni bir işdir. Bundan əlavə, müəllif Əl-Şatibinin araşdırmaları haqqında ümumi və əhatəli məlumat da verir. Nəticədə, möhtərəm İmamın həyatı, düşüncə tərzi və metodları haqqında yeni və faydalı biliklər tədqim edilir.

# GİRİŞ

Müəllif Dr. Əhməd Raysuni "*məqaisidi-şəriyyə*" (İslam hüququnda ali məqsədlər) sahəsində mötəbər alim və mütəxəssisdir. "*Əl-məqaisid*" ("Məqasid") sözünün "ali məqsədlər" kimi tərcümə olunması müasir dövrdə İslam düşüncəsi ilə bağlı bir çox məsələlər və problemlərin həll edilməsi üçün prerekvizit rolunu oynayır. Bu mövzuda müəyyən biliyə malik olmaq məqsədlərə əsaslanan fiqh sahəsinin inkişafına müsbət təsir edir. Hətta İslam doktrinaları ilə bağlı ilahi hikməti dərk etmək nöqteyi-nəzərindən də vacibdir.

İslam dininin ilk dövrlərinin sona çatması fonunda müsəlman alimlərində belə bir düşüncə formalaşdı ki, müsəlmanların gündəlik həyat və fəaliyyətləri ilə İslam dininin prinsipləri və doktrinaları arasında fərqlər yaranmağa başlayır. İnsanların haqq yolundan sapmalarının qarşısını almaq və onlara kömək etmək məqsədilə həmin dövrün alimləri şəriətin və ya İslam hüququnun məqsədlərini, doktrinalarını, hədəflərini və funksiyalarını şərh etməyə başladılar. Bu məqsədlərin və səbəblərin Quran və sünnətdə əks olunma forması izah olunmağa başlandı. Alimlər yuxarıda qeyd edilən məqamlarla bağlı ictihadları da möminlərin diqqətinə çatdırmağa çalışdılar. Müasir dövrdə isə əsas məqsədlər haqqında məlumat almaq ancaq ciddi və davamlı elmi fəaliyyətlər nəticəsində mümkündür.

Sünnət (Sünnə) İslam dininin məqsədlərinə və ümmətin maariflənməsinə nail olmaq üçün vacib olan həll yollarının tapılmasına, qanunların müəyyən edilməsinə, praktiki konsepsiyaların və sosial sistemlərin formalaşmasına töhfə verir. Bu kitab Quran və sünnəti dərk etmək, onlardan nəticə çıxarmaq üçün lazım olan metodlarla bağlı modellər təqdim edir. Tədqiqat işində İmam Əbu İshaq Əl-Şatibinin (ö.t 790/1388) İslam hüququnun prinsip və məqsədlərinə dair nəzəri görüşləri araşdırılır. Əl-Şatibinin metodları Quran və sünnətin geniş mənada dərk edilməsi üçün olduqca əhəmiyyətlidir.

Kitabda ümumi maraqlar kontekstində şərhlər aparılır. Həmin şərhlər bu cür mətnlərin mənasının qavranılması üçün əsas təşkil edir. Bu kitabda universal qanunvericiliyə əsaslanmağın və müəyyən mətnlərin dərk edilməsində həmin məlumatların istifadə edilməsinin əhəmiyyəti də vurğulanır. İslam dininin universal prinsiplərinin və məqsədlərinin hər bir ictihad fəaliyyəti üçün güclü təməl rolunu oynadığına dair hər hansı bir şübhəyə yer yoxdur.

Müsəlmanların düşüncələrində zəruri standartlar və prioritetləri tarazlaşdıra bilməməsi ciddi problemlərdən biridir. Bizim akademik və praktiki həyatımızda dəyərlər və prioritetlər müstəvisində çox sayda qeyri-bərabərlik müşahidə olunur. Bir çox məqamlarda əsas diqqət zahiri görünüş və rəsmiyyətə verildiyi üçün əsl mahiyyətə və məqsədlərə biganə qalınır. Xüsusi detallar, demək olar ki, hər kəsin həyatında nəzərə alınır, amma lazım olan universal məqsədlər isə yaddan çıxmaqdadır. Bu kimi hallar müsəlman alimlər, mütəfəkkirlər və insanları İslam əqidəsinə dəvət edənlər üçün olduqca vacibdir. Problemin həll yolu prioritetlərin yenidən nəzərdən keçirilməsi və müsəl-

manlar üçün vacib olan standartlar və dəyərlər sisteminin yenidən müəyyən edilməsi nəticəsində mümkündür.

Müəllif İslam hüququnun məqsədləri ilə bağlı əhatəli nəzəri görüşlər təqdim edir və hüquq elminin atası sayılan İmam Əbu İshaq Əl-Şatibinin araşdırmalarını da diqqətə çatdırır. "Məqsədlərə əsaslanan prinsip" anlayışı Əl-Şatibinin görüşlərinin təhlilindən sonra təqdim edilir. Kitabdan əldən edilən qənaət göstərir ki, məqsədlərə əsaslanan ictihad və qanunvericilik məsələlərini dərk edib bu məsələyə töhfə verə bilməyimiz üçün qısa zaman ərzində lazımi qabiliyyətlərə malik olmalıyıq. Bu kitabda qanunvericlik nümunələri və onların əsasını təşkil edən norma və prinsiplər də əks olunmuşdur. İslam hüququna görə, müasir dövr üçün hüquq normalarının müəyyən edilməsi mümkündür.

## Müəllif tərəfindən yazılan ön söz

*Məqaisid və ali məqsədlər nəzəriyyəsi*

Tunisli alim Məhəmməd Əl-Tahir (Tahir) ibn Aşur İslam dininin ali məqsədlərini belə izah etmişdir: "Qanunların tətbiq edildiyi məqamlarda və ya həmin məqamların bir qismində Allahın nəzərdə tutduğu mənaların başa düşülməsi və ya səmimi niyyətin hiss edilməsi…". İbn Aşur nizam-intizamın bərqərar edilməsi, ümumi mənfəətin diqqət mərkəzində saxlanılması, səhv yola düşməyin qarşısının alınması və insanlar arasında bərabərliyin qorunması kimi ümumi məqsədləri qeyd etmişdir.

Mərakeşli yazıçı Allal Əl-Fasi *məqaisidi-şəriyyəni* "Allahın öz qanunlarında əsas aldığı səbəblər" kimi səciyyələndirmişdir. *Əl-məqaisid* (Məqasid) bəşəriyyətin rifahına

nail olmaq üçün qanunla müəyyən edilmiş məqsədlərdir. Bütün bunlar qanunvericiliyin bir çox sahələrində ortaq məsələləri tənzimləyən ümumi məqsədlər olaraq sinifləndirilmişdir. Qanunların spesifik məqsədləri isə konkret və ya İslam hüququnda məhdud sayda müqayisə oluna bilən sahələrdəki məsələlərlə birbaşa əlaqəlidir. Allahın nəzərə çatdırmaq istədiyi konkret məqsədlər isə təfsilatlı hüquqi hökmlərdə əks olunur.

Hüquq alimləri məqsədlərin bu son kateqoriyasına xüsusi diqqət yetirirlər. Onlar həmçinin "hikmət", "əsas, özül", "məna" kimi başqa sözlərdən də istifadə etməklə bu məqsədləri izah edirlər. "Hikmət" sözü "niyyət" sözünün sinonimi kimi istifadə olunsa da, üstünlük birinciyə verilir. Hüquq sahəsində fəaliyyət göstərən şəxslər "hikmət" sözünü Allahın niyyəti mənasında istifadə edirlər.

"Əsas", "özül" (*illah*) (*illət*) sözləri Allahın niyyətinə istinad üçün istifadə edilir və "saf niyyət" ("hikmət") sözünün sinonimidir. Bu vəziyyət daha çox tətbiq edilən qərarlar, müşahidə və müəyyən oluna bilən şərtləri ehtiva edir. Bunun da səbəbi odur ki, qəbul edilən qərarlar müşahidə və müəyyən oluna bilən şərtlər və ya vəziyyətlərlə bilavasitə əlaqəlidir. Anlaşılmazlıq və çaşqınlığa yol verməmək üçün müvafiq qərarlar müşahidə və müəyyən oluna bilən şərtlər və ya vəziyyətlərlə əsaslandırılır.

Əl-Şatibi "*illah*" (illət) sözünün daha dəqiq izahını vermişdir: "Hökm və qərarlarla bağlı saf niyyət və mənfəət". Daha sonra belə bir fikir də irəli sürmüşdür: "Müşahidə və müəyyən olunmasından asılı olmayaraq, ehtimal olunan səbəb və ya situasiyaya deyil, özünə mənfəət və zərər verir". Əl-Şatibi "*illah*" (illət) sözünü "hökm və qərarlar nəticəsində veriləcək fayda və qarşısı alınacaq zərər" kimi

şərh etmişdir. Bu cür şərh terminin əsl mənası ilə müvafiqlik təşkil edir və İslam hüququnun məqsədlərini tədqiq edən şəxslər tərəfindən daha çox istifadə olunur. Belə ki, bu məqsədlərin araşdırılması hüquqi qərarların əsasının tədqiq edilməsidir. "*İllah*" (illət) sözü orijinal mənasından başqa "fayda vermək və zərərlərin qarşısını almaq" mənasında istifadə edilən "*talil*" (təlil) termini ilə eyni məzmunda işlədilmişdir. Əl-Şatibi İslam hüququnun məqsədləri haqqında yazarkən "mənalar" sözündən daha çox istifadə etmişdir. Ancaq elmi fəaliyyətinin müəyyən bir mərhələsindən sonra "əsas", "hikmət" və "niyyət" sözlərinə üstünlük verməyə başlamışdır.

"Məqsədlər nəzəriyyəsi" konsepti İslam dinində hökm və qərarların, eləcə də bunlar üçün əsas olan dəllilərin nizamlandığı, vahid məna çərçivəsinə salındığı struktur və ya sistem mənasını ehtiva edir. Məqsədlər nəzəriyyəsi hüquqi nəzəriyyələri, prinsipləri və spesifik qərarları əhatə edir. Əsaslı, rasional tədqiqatlar məqsədlər nəzəriyyəsini doğurur və müdriklik, mərhəmət, ədalət və bərabərlik qanunları kimi Allahın qanunlarına olan inanca əsaslanır. İslam hüququnun induktiv təhlili ali məqsədlər nəzəriyyəsinin əsaslı olması qənaətini doğurur. Əlavə olaraq deyə bilərik ki, məqsədlər nəzəriyyəsi səhih qəbul edilən mətnlərlə də müvafiqlik təşkil edir. Bir sözlə, məqsədlər nəzəriyyəsi İslam hüququnda təfərrüatları və detalları tənzimləyir, hər bir müstəqil şərh üçün zəmin yaradır. Bu mövzuda əsas məsələ İslam qanunlarının fani və əbədi dünyada insanların nicat tapması üçün nə qədər vacib olduğuna qeyd-şərtsiz inamdır. Məqsədlər nəzəriyyəsi "məğz" (*daruriyyah*) ("zərurətlər" (zəruriyyat) anlayışından başlamaqla "zəruri" (*hajiyyah*), ("ehtiyaclar" (haciyyat) "tamamlayıcılar" (*təkmiliyyah*) (təkmiliyyat) məfhumlarına

qədər İslam dininin faydalarının miqyasının izahını verir. İslam hüququnun məqsədləri mövzusunda araşdırmalar, hələ də Əl-Şatibinin nail olduğu səviyyəyə çatmamışdır.

## Əl-Şatibiyə qədər ali məqsədlər anlayışı

Əl-Şatibinin nəzəri görüşlərini obyektiv şəkildə qiymətləndirmək üçün onun yaşadığı dövrə qədərki İslam hüququnun məqsədlərinə dair mənbələrin təhlil edilməsi olduqca böyük əhəmiyyət kəsb edir. Həmin təhlillər zamanı İslam hüququnun Əl-Şatibidən əvvəlki məqsədlərinin müəyyən edilməsi və bu işlərin əhəmiyyətinin izah edilməsi istiqamətində atılan addımlar nəzərdən keçirilir. Nəticədə, ali məqədlər nəzəriyyəsinin mənbələri diqqət mərkəzində saxlanılır.

İslam hüququnun məqsədləri mövzusunda diqqət mərkəzində saxlanılan əsas sahə, təbii ki, fiqh elmi və onun əsaslarıdır (*üsul əl-fiqh*) (üsuli-fiqh). Bu məqsədlər fəqihlərin (fiqh elmi ilə məşğul olan şəxslər) və üsuliyyunların (üsulşünasların) (nəzəriyyəçilərin) işlərində öz əksini tapır. Əl-Şatibi maliki məzhəbi nümayəndələrinin və nəzəriyyəçilərin "məqsədlər"ə dair görüşlərinə istinad etmiş və onların fikirlərindən faydalanmışdır. Bu baxımdan Əl-Şatibinin fiqhlə əlaqəli düşüncələri əsasən maliki məzhəbində və İslam hüququnun məqsədləri mövzusunda əks olunur. Fəqihlər İslam hüququnun məqsədlərinə daha həssas mövqe nümayiş etdirsələr də, bu məsələyə ilk diqqət yetirənlər nəzəriyyəçilər olmuşdur.

Əl-məqaisid (məqasid) mövzusunu müzakirə edib bəzi məsələləri aydınlaşdırmaqla Əl-Cuvayni (Cüveyni) və Əl-Qəzzali (Qəzali) üsul əl-fiqhin (üsuli-fiqhin) araşdırıl-

masına töhfə verən alimlər arasında xüsusi olaraq qeyd edilməlidir. Nəzəriyyəçilər (üsulşünaslar) əvvəlki dövrlərə aid olan şərhləri və nəzəriyyələri öz yazılarında sistemli şəkildə qeyd etmirdilər. Fiqhlə bağlı mövzuların ənənəvi ötürülmə zənciri ilk dəfə Əl-Qəzzalinin əsərlərində aydın şəkildə hiss olunur. Hicri təqvimlə 3-cü əsrdə yaşayan sufiliyin görkəmli nümayəndələrindən Əl-Hakim Əl-Tirmizi İslam hüququnun məqsədlərini (məqasid mövzusunu) diqqət mərkəzində saxlamış, İslamda hüquqi hökmlərin verilməsi üçün əsasların müəyyən edilməsi istiqamətində mühüm işlər görmüşdür. O, "*məqaisid*" terminindən istifadə edən ilk alimlərdən biri olmuşdur. Əl-Tirmizi İslamda dini öhdəliklərin əsasını mühakimə yürütməklə və əsaslandırmalar etməklə müəyyən etməyə çalışmışdır.

Fiqh sahəsinin ilk alimləri teologiyanı hüquq elmi ilə əlaqələndirirdilər. Adları qeyd edilən üsuliyyunlar (üsulşünaslar) (nəzəriyyəçilər) İslam hüququnun məqsədlərini tədqiq etmişlər. Əl-Cuvayninin (ö.t. 478 HT) yazdığı "Əl-Burhan" ("Sübut") kitabı üsul əl-fiqh (üsuli-fiqh) mövzusunda qələmə alınan ilk mənbədir. Qeyd etmək lazımdır ki, Əl-Cuvayninin bu əsəri tələbəsi və davamçısı olan İmam Əbu Həmid (Hamid) Əl-Qəzzaliyə böyük təsir göstərmişdir. Əl-Cuvayninin hüququn məqsədləri sahəsinə ən böyük töhfəsi onun İslam hüququnun məqsədlərini və əsaslarını müəyyən başlıqlar altında sistemləşdirməsidir: günahsız şəxslərin zərər görməməsi üçün zəruri olan amillər; zərurətlər kateqoriyasına aid edilməyən ümumi ehtiyaclar; fəzilətli olmağı və fədakarlıq nümayiş etdirməyi həvəsləndirmək üçün tövsiyə olunan fəaliyyətləri icra edənlər və aydın mühakimə yürüdənlər və məqsədi olmayanlar.

Əl-Cuvayni (Cüveyni) sonrakı mərhələdə Allahın nəzərdə tutduğu məqsədləri "zərurətlər", "ehtiyaclar" və "yenilənmələr" (tamamlayıcılar) kateqoriyalarına bölür. Bu bölgü məqaisid (məqasid) ilə bağlı müzakirələrin özülünü təşkil edir. O, İslam hüququnda beş əsas zərurəti qeyd edir: din, insan həyatı, ağıl, nəsil və zənginlik (var-dövlət, mülkiyyət).

İmam Əl-Qəzzali (ö.t. 505 HT) üsul əl-fiqh və İslam hüququnun məqsədləri sahəsinə ciddi töhfələr verən görkəmli alimlərdəndir. O, "*talil*" ("təlil") və hüquqi hökmlərin əsaslarından olan ("*ilal*") ("iləl") ilə bağlı araşdırmalar aparmışdır. Alim İslam hüququnda aşkar şəkildə qəbul olunan maraqları "Allahın məqsədlərinin qorunması kimi..." izah etmişdir. İmam Əl-Qəzzali İslam hüququnun məqsədlərini hüquqi maraqlar və niyyətlər müstəvisində şərh etmişdir. Hətta bu sahədə "dini" və "dünyəvi" təsnifat aparmışdır. Alim belə bir qənaətə gəlmişdir: "Səhv hərəkətləri cilovlayan hər şey dinlə bağlı məsələləri də özündə ehtiva edir. Bunlar eyni zamanda dünyəvi istəklərlə də əlaqələndirilə bilər". Əl-Qəzzali dünyəvi istəklərlə müqayisədə dini maraqlara üstünlük verməmişdir, çünki diqqəti daha vacib bir məqama çəkmişdir. O, hüququn əsas məqsədləri siyahısında ilk maddəni "dinin qorunması" olaraq müəyyən etmişdir.

Əl-Qəzzali də İslam hüququnun ehtiva etdiyi maraqları aktuallıq və aşkarlıq müstəvisində "zərurətlər", "ehtiyaclar" və "yenilənmələr" (tamamlayıcılar) kateqoriyalarına bölmüşdür. O, İmam Əl-Şatibiyə qədər öz xələfi olan üsuliyyunlar (üsulşünaslar) üçün parametrlər müəyyən etmişdir. Qeyd etmək lazımdır ki, İmam Əl-Şatibi üsul əl fiqh tarixində üçüncü yeni mərhələni başlatmışdır. Əl-Qəzzali Fəxrəddin ər-Razi, Seyfəddin Əl-Amidi, İbn Əl-Hacib,

Əl-Baydavi (Beyzavi), Əl-İsnavi, İbn Əl-Sübhi, İzzəddin ibn Ədüssəlam və İbni (İbn) Teymiyyə kimi XIII və XIV əsrlərdə yaşayan alimlərə təsir etmişdir. Bu alimlər İslam hüququnu təhlil edərkən Əl-Qəzzalinin prinsiplərini əsas almışlar. İbn Teymiyyəyə görə, usuliyyunların (üsulşünasların) müəyyən etdikləri beş məqsəd İslam hüququnun əsaslarını məhdudlaşdırır və qanunların əsas məqsədlərini izah etmir.

Maliki məzhəbindəki yanaşmalar haqqında məlumatlı olmaq Əl-Şatibinin nəzəriyyəsinin mahiyyətinin daha yaxşı başa düşülməsinə kömək edir. Əl-Şatibinin əsərlərində maliki məzhəbinin təsirləri hiss olunur. Buna görə də maliki məzhəbi İslam hüququnun məqsədlərinin nəzərə alınması baxımından digər fiqh məzhəblərindən fərqlənir. Əl-Şatibi bu fərqli görüşlərin əsas simalarından hesab olunur.

İmam Malik ibn Ənəs özünü bu məzhəbin davamçılarından biri hesab edərək hüquqi mühakimə və mülahizələrində peyğəmbərin (s.ə.s) səhabələrindən rəvayət edilən hədisləri, hadisələri və təcrübələri əsas götürmüşdür. Məsələyə bu aspektdən baxanda görürük ki, həmin məzhəb İmam Malikə mükəmməl bir sistem olaraq miras qalmışdır. O, müstəqil ictihadlar verməklə yanaşı, Mədinə alimlərinin elmindən də bəhrələnmişdir.

Mədinə şəhərində geniş yayılan bu məzhəbdə ilk olaraq Ömər ibn Xəttaba istinad edilirdi. Maliki fiqh məzhəbi Ömər ibn Xəttab ilə əlaqələndirilsə də, yalnız onun şərhləri və mühakimələri deyil, ümumilikdə İslam dininin prinsipləri əsas götürülürdü. İmam Malikin "Muvatta" əsəri və bu məzhəbin fitvalarında, hüquqi hökmlərində və Allahın rəsulunun sünnəti əsasında formalaşan məsələlərdə

həzrət Ömərin təsiri açıq-aşkar hiss olunur. Mədinə əhalisi öz hərəkət və davranışlarında Məhəmməd peyğəmbərin sünnətini və Ömər ibn Xəttab da daxil olmaqla dörd böyük xəlifənin dövründə formalaşan ənənələri rəhbər tutmuşdur. Ömər ibn Xəttab ilk dəfə olaraq məhdudiyyətsiz mənfəət (*əl-masalih əl-mursalah*) (qeyri-məhdud mənafelər (məsalehi-mürsələ) və qeyri-müəyyən hüquqi yanaşmaların qadağan edilməsi (*sədd əl-xarai*) (qeyri-müəyyən əməllərin məhdudlaşdırılması (səddi-zərai) prinsiplərini tətbiq etmişdir.

İbn Teymiyyə Mədinə məktəbininin yüksək məziyyətlərə və güclü əsasa malik olduğunu bildirmişdir. Onun fikrinə görə, hər hansı bir şəxs İslam dininin əsaslarını və İslam hüququnun prinsiplərini nəzərdən keçirdikdən sonra maliki fiqh məzhəbini ən etibarlı mənbə hesab edir. O, Mədinə sakinlərinin bu prinsiplərə ciddi şəkildə əməl etmələrinin rolunu da vurğulamışdır. İslam dini öz inkişafının zirvəsinə Mədinə şəhərində çatmışdır. Məhz bu şəhərdə Məhəmməd peyğəmbərin xəlifələri tərəfindən icra edilən əməllər sonrakı illərdə bir çox hadisələr üçün ilham mənbəyi olmuşdur. İslam dini daha geniş coğrafiyalara yayılmağa başlamış və müsəlman alimləri Mədinə irsini öyrənməyə başlamışlar.

Maliki məzhəbinin İslam hüququnun məqsədləri ilə birbaşa əlaqəsi olan əsasları da ciddi maraq doğurur. İslam dininin hüquqi hökmlərində ictimai mənfəət və ya maraq konseptinin *(əl-məslahah*) (məsləhət) formalaşdırılması təcrübəsi Ömər ibn Xəttab başda olmaqla səhabələrin hərəkətləri ilə bilavasitə bağlıdır. Əl-Qəzzali yazır: "Səhabələr qiyas mövzusunda (Allah onlardan razı olsun) müsəlman cəmiyyətləri üçün model funksiyası daşıyırlar.

Şübhəsiz ki, onların qərar verdikləri bütün məsələlərdə ictimai maraq ən ümdə məsələdir”.

Əl-Qəzzali insan mənfəətinin hüquqi hökmlərdə dəlil olaraq nəzərə alınması təcrübəsinin tərəfdarı olmuşdur. Alim bu məsələni səhabələrin oxşar hərəkətləri ilə əlaqələndirmişdir. Əl-Qəzzali nəzərə alınması vacib olan mənfəətin Allah tərəfindən müəyyən edilən mənfəətlərlə oxşar olması prinspini şərt olaraq irəli sürmüşdür. Ən ciddi məsələlərdən biri də insan mənfəəti ilə Allahın məqsədləri arasında olan əlaqədir. Allahın məqsədlərini belə ümumiləşdirmək olar: insanların mənfəətə (maraqlara) nail olması və onların zərər görməsinin qarşısının alınması. Bu əlaqə gündəlik fəaliyyətlərlə bağlı qərarlar başda olmaqla İslam hüququnun hökmlərində həmişə müşahidə olunur.

Fiqh prinsipləri haqqında mülahizə yürütmək istislah çərçivəsində olmalıdır. Hər hansı bir materialı oxuyub ondan nəticə çıxarmaq istədikdə belə bir prinsipi əldə rəhbər tutmalıyıq ki, həmin mətnin yazılmasında əsas məqsəd ümumi mənfəətə xidmət etmək və zərər verməyə mane olmaqdır. Müvafiq materialları oxuyub başa düşmək istədikdə və ya iki hökm arasında müqayisə apardıqda yuxarıda qeyd edilən məqam nəzərə alınmalıdır.

Maliki məzhəbinin əsaslarında “məhdudiyyətsiz mənfəət” olaraq müəyyən edilən mülahizələr də diqqəti cəlb edir. Bu fiqh məzhəbində insan mənfəəti və ya maraqları - bu maraqlar İslam hüququnun ümumi məqsədlərini təcüssüm etdirir - eləcə də hər bir hökmün əsasını təşkil edən spesifik məqsədlər bariz formada diqqətə alınır. Yəni mənfəətə əsaslanan yanaşma maliki məzhəbinin ilk vaxtlarından mövcud olmuşdur.

"İstihsan" (istehsan) nəzəriyyəsi İslam hüququnda geniş istifadə olunmaqdadır. Bu, peyğəmbərin etdikləri və dedikləri nəzərə alınmaqla izah olunmuşdur. Sonrakı dövrlərdə istihsana daha çox ehtiyac duyulduğu üçün geniş mənada tətbiq olunmuşdur. İstihsanın daha geniş mənada və aydın formada izah və tətbiq edilməsində xəlifələr ciddi rol oynamışlar. Təbii ki, bu sahədə Ömər ibn Xəttabın müstəsna rolu vardır. İmam Malik istihsanı insanın maraqlarının qorunması mənasında dərk etmiş və bu şəkildə də tətbiq etmişdir.

Əbu Hənifə İslam hüququnu mənfəətə əsaslanan məqsədlərini qanunla bağlı şərhlərində, hökmlərində və "istihsan" anlayışı kontekstində ifadə etmişdir. Hənəfi fiqh məzhəbinin nümayəndələri istihsan sözünün tək və konkret məna ifadə etməsi fikri ilə razılaşmayıblar. Onlara görə, istihsan konsepsiyası İslam hüququnda insanın maraqları nəzəriyyəsindən qaynaqlanır.

Əgər İmam Malikin düşüncəsinə uyğun olaraq fiqh elmində müstəqil şəkildə verilmiş şərhlərin onda doqquzu istihsana əsaslanırsa və istihsan sözünün mənası insanın maraqlarının və ədalətin nəzərə alınmasıdırsa, onda hüquqşünaslar Allahın insanın maraqlarını və ədaləti qorumaqla bağlı niyyətini həmişə xatırlamalıdırlar. Hüquqşünaslar zərərlə nəticələnən hər hansı bir hadisəyə rast gəlsələr, zərərin qarşısının alınması üçün müstəqil şəkildə fitva verməlidirlər. Maliki fiqh məzhəbində istihsan zərərin qarşısının alındığı və hüquqi hökmlərin olmadığı şəraitdə insanın maraqlarına sadiq qalmaq mənasında yozulur. Bu məqamda Allahın niyyəti və insanın maraqları arasındakı əlaqə aşkar şəkildə hiss olunur. Bu cür yanaşma hüquqi hökmlər və həmin hökmlərin verilməsi nəticəsində qorunması nəzərdə tutulan insanın maraqları arasında əlaqəni

ortaya çıxarır. Bununla belə, müvafiq mətnlər məqsədlər və *"ilal"* (iləl) müstəvisində aydınlaşır.

Maliki və digər məzhəblərin nümayəndələri qeyri-müəyyən hüquqi yanaşmaların qadağan edilməsinin (*sədd əl-xarai*) (səddi-zərai) tərəfdarı olmuşlar. Bu, Allahın mənfəətlərin müəyyən edilməsi və zərərlərin qarşısının alınması müstəvisində insanın maraqlarını müdafiə etməsinin ayrı bir formasıdır. Müasir dövrün müəllifləri bu mövzunu da üsul əl-fiqh ilə əlaqələndirirlər. Bu da hüququn ancaq mənfəət vermək və zərərlərin qarşısını almaq üçün əsas vasitə olması tələbi ilə bağlıdır. Əgər verilmiş hökmlər qanunla müəyyən edilmiş məqsədlər üçün deyil, başqa niyyətlər üçün istifadə olunsa, hüquqi qüvvəyə malik olmurlar.

Əl-Şatibinin da təsdiq etdiyi kimi, İmam Malik fiqh elminin bir çox sahələrində *sədd əl-xarai (səddi-zərai)* prinsiplərini rəhbər tutmuşdur. *Sədd əl-xarai* Məhəmməd peyğəmbərin korrupsiya və rəhbər şəxslərdən hədiyyələr almağın məqbul hesab edilməməsi ilə bağlı fikirləri üçün də tətbiq edilə bilər. Maliki məzhəbinin nümayəndələri satış, cəza və evlilik kimi fiqhi mövzulara üstünlük vermişlər. Çünki maliki məzhəbinin maraqlara əsaslanan yanaşmasında satış, cəza və evliliklə bağlı müxtəlif fikirlər nəzərə alınmış və əsas götürülmüşdür.

Hüquqi cəzaların verilməsi baxımından maliki məzhəbi ən ciddi məzhəb hesab edilir. Bu məzhəbdə insanların qanunları pozmasının qarşısının alınması üçün ciddi fikirlər irəli sürülmüş və səylər göstərilmişdir. Bu fikir və təmayüllər xəlifə Ömər ibn Xəttabın fiqhi yanaşmalarına, siyasətinə və idarəetməsinə əsaslanır. Ümumilikdə məzhəblər arasında ilk dəfə maliki məzhəbində insanın

məqsədləri nəzərə alınmış və bu mövzuda hökmlər verilmişdir. Əl-Şatibi isə insanın və Allahın məqsədləri arasında əlaqəni izah etmişdir.

Maliki məzhəbində məqsədlər və niyyət prinsiplərinin mütəmadi olaraq tətbiq edildiyi digər sahə andiçmə və ona bağlı olan öhdəliklərdir. Malikilər evlilik və cinayət ittihamları kimi mövzularda niyyət məsələsinə çox həssas yanaşırlar. İnsanların hərəkətlərini və sözlərini təhlil edərkən ilk növbədə məqsəd və niyyətin diqqətə alınması Ömər ibn Xəttab və Məhəmməd peyğəmbərin səhabələrinin yanaşması olmuşdur. Əlavə olaraq, maliki məzhəbində pis niyyətlərin qarşısının alınması məsələsinə də xüsusi olaraq diqqət yetirilmişdir.

## Əl-Şatibi və onun nəzəri görüşləri

Əbu İshaq Əl-Şatibi mənbələrdə möhtərəm, müdrik, başqalarının nümunə aldığı imam, Quranı əzbərləmiş, İslam qanunları və mənbələri haqqında şərhlər verən alim olaraq təsvir olunmuşdur. O, Qranada vilayətində böyümüşdür. Əl-Şatibi Qranada və digər şəhərlərin şeyxlərindən təsirlənmişdir. Onun ən məşhur əsəri "Əl-Muvafaqat" 1302/1184-cü ildə çap olunmuşdur. Bu əsərdə İslam hüququnun ali məqsədləri, hökmləri, hüquqi dəlillərin sinifləndirilməsi, insanların hərəkətləri ilə bağlı hökm verərkən dəlillərdən istifadə, müstəqil şəkildə qərarların verilməsi və münaqişələrin tənzimlənməsi kimi məsələlər əks olunmuşdur.

Əl-Şatibi *bidət* və ya yenilik, *muhdathat* (*mühdəsat*) və Quran, sünnət və ya peyğəmbərin səhabələrinin əməlləri, dedikləri ilə ziddiyyət təşkil edən etiqad və ya hərəkət-

lər mövzularına toxunmuşdur. O, üsul əl-fiqhə əsaslanan metodologiyadan istifadə edərək *istihsan* və *əl-məsalih əl mursalah* (istehsan və məsalehi-mürsələ) kimi prinsiplərin izah edilməsi üçün maraqlı yanaşmalar irəli sürmüşdür. Əl-Şatibi hüququn prinsiplərini və məqsədlərini təhlil etməklə yanaşı, həmin prinsiplərin tətbiq edilməsi ilə bağlı fikir və mülahizələr də söyləmişdir.

Əl-Şatibi ən incə nüans və məqamları nəzərə alan alim olmuşdur. Möhtərəm alim hər hansı bir mövzu haqqında yazmamışdan əvvəl ciddi araşdırmalar aparmış, başqaları ilə fikir mübadiləsi etmişdir. Əl-Şatibi rəhbər şəxslərin, imamların xütbə verməsi və ya vəzifələri ilə bağlı qəbul edilən ümumi fikirlərə qarşı çıxmış və bu sahədə elm və reallıq müstəvisində mövqe nümayiş etdirməyə cəhd göstərmişdir. Alim öz fitvalarında sünnətə istinad etmiş, peyğəmbər və səhabələrinin etmədiyi, amma öz dövründə geniş vüsət alan bəzi ənənələrə və dini yeniliklərə ciddi şəkildə qarşı çıxmışdır. İmam Şatibinin bəzi əsassız yenilikləri tənqid etməsi müəyyən qrup insanların ona qarşı çıxmasına səbəb olmuşdur. O, haqsız ittihamlar və böhtanlara məruz qalsa da, əqidəsindən dönməmişdir. Ona qarşı ciddi ittihamlar olan dövrdə İslam dini ilə əlaqəli yazılan əsərlər arasında dini yeniliklər mövzusunda ən dəyərli mənbə kimi qiymətləndirilən "Əl-İtisam" əsərini qələmə almışdır.

Əl-Şatibi mövcud problemləri qabardan bir çox məşhur şeyxlərlə məktublaşmış və maliki məzhəbinin aparıcı nümayəndələri ilə müzakirə və məsləhətləşmələr aparmışdır. Bu faktlar Əl-Şatibi ilə bağlı bir çox məsələlərin izah edilməsi üçün əhəmiyyət kəsb edir.

Maliki məzhəbinin hüquq mütəxəssislərinə məlum olduğu kimi, bu məzhəbdə İmam Malikin adı ilə əlaqələndirilən müəyyən sayda bir-birinə zidd fikirlər mövcuddur. Bu fikirlər arasında ziddiyyət və uyğunsuzluqlar olsa da, alimlər öz fitvalarında həmin görüşlərə istinad edirlər. Üsul əl-fiqh alimlərinin qənaətinə görə, əgər iki bir-birinə zidd fikir eyni alimin adi ilə bağlıdırsa, onda bunların heç biri hüquqi əsasa malik olmur və dəlil olaraq istifadə oluna bilməz.

İmam Malikin səsləndirdiyi fikirlərlə bağlı ziddiyyətli yanaşmalar mövcud olduqda və kimsə bu fikirlərdən birinin doğru olduğunu hesab etdikdə həmin şəxsin "bu, müvafiq məsələ ilə bağlı maliki məzhəbinin yanaşmasıdır" deməsi məqbul hesab edilməlidirmi? Hüquqşünaslar tez-tez İmam Malikin "Əl-Muvatta" əsərində qeyd olunan fikirlərə istinad edirlər və öz hökmlərini əsaslandırılar.

İmam Malik ziddiyyətli fikirləri nəzərə almışdır və bu məsələ onun qurucusu olduğu məzhəbdə də aydın şəkildə nəzərə çarpmaqdadır. Maliki məzhəbində bir sıra fitvalar bu prinsipə əsaslanır. Əgər hər hansı bir hadisə və hərəkətlə bağlı hökm maliki məzhəbinin qərarlarına zidd olsa da, digər alimlər və ya məzhəblərlə müvafiqlik təşkil edərsə, maliki məzhəbinin hüquqşünasları tərəfindən verilən fitvada başqa məzhəb və alimlərin fikirləri əsas götürülür, həmin hadisə və hərəkət hüquqi qüvvəyə malik olur.

Əl-Qəzzali, İbn Rüşd və digər alimlər hüquqi aspektdən şübhəli hesab edilən məsələlərlə bağlı müzakirələrdən yayınmaq üçün bu yanaşmanı dini metodologiya kimi dəyərləndirmişlər. Onlara görə, icazənin verilməsi və ya verilməməsi hüquqi aspektdən şübhəli hesab edilir. Peyğəm-

bər müsəlmanları şübhəli məsələlərdən uzaq durmağa çağırmışdır. Bununla belə, İslam hüququnda tam şəkildə aydınlaşmayan bu kimi məsələlər istisna təşkil edir.

Biz insanların mütəmadi olaraq etdikləri ilə İslam hüququnun tələbləri, eləcə də dindar alimlərin, əcdadlarımızın, müctəhidlərin hərəkətləri arasında uyğunsuzluq gördükdə hal-hazırda geniş yayılmış ənənələri təsdiq edib İslam hüququndan və alimlərin bizə miras qoyduğu təcrübələrdən əl çəkməliyikmi? Əgər belə olsa, sünnətin əhəmiyyətini necə izah edə bilərik?

Əl-Şatibi tərəfindən qaldırılan bu məsələlər onun İslam hüququna olan bağlılığını və dəlillərə verdiyi əhəmiyyəti göstərir. Hətta Əl-Şatibi fikir ayrılıqlarına son qoymaq üçün çox vacib bir həll yolu təqdim edir: Əgər hər hansı bir prinsipin tətbiq edilməsi bir çox hallarda hüquq və şüurla uzlaşmırsa, həmin prinsip əsaslı hesab edilməməli və qeyd-şərtsiz istifadə olunmamalıdır.

Bu tədqiqat işində Əl-Şatibinin məqaisid nəzəriyyəsi diqqət mərkəzində saxlanılır. Möhtərəm imam İslam hüququnu səbəblər müstəvisində təhlil etdikdən sonra belə bir mülahizə yürüdür: İlahi qanunlar bütün insanların maraqlarının qorunması üçündür. Alim belə bir yekun nəticə və qənaətə gəlir ki, hüquq insanların maraqlarına xidmət etmək üçündür və bu cür səbəblərə əsaslanan şərhlər hüquqla bağlı təfsilatlı məqamların anlaşılması üçün həmişə olmuşdur və olacaqdır.

Əl-Şatibi hüququn ali məqsədlərini Allahın məqsədləri və qanunlar qarşısında məsuliyyət daşıyanların məqsədləri olmaqla iki kateqoriyaya ayırmışdır. O, Allahın məqsədlərini isə dörd yarımqrup şəklində təsnif etmişdir: qanunları müəyyən etmə prosesinə aid ali məqsədlər, insanların

başa düşməsi üçün qanunlar qəbul edərkən formalaşan ali məqsədlər, davranış standartı kimi qanunları qəbul edərkən üzə çıxan ali məqsədlər və insanları qanuna tabe olmağa dəvət edərkən ərsəyə gələn ali məqsədlər.

Əl-Şatibi Allahın qanunlarla bağlı ali məqsədlərini üç kateqoriyada izah etmişdir: insanların mənəvi və maddi rifahını təmin etmək üçün əsas olan məqsədlər, ifrat zərurətlər və ya ehtiyaclara əsaslanan maraqlar, məqsədlər və ilk iki nüansa nail olmaq üçün əlavə olaraq nəzərə alınmalı məqamlar. Ona görə, əsas məqsədlər bunlardır: din, insan həyatı, nəsil, maddi zənginlik (var-dövlət) və insan şüuru (ağılı). İslam hüququnda əsas və digər məqsədlər mühafizə olunur və onların yox olmasının qarşısı alınır. Beş əsas məqsəd digər məqsədlər üçün təməl rolunu oynayır.

Hüquqda müəyyən edilən məqsədlər digər məqsədlərin ləğv edilməsi üçün nəzərə alınmamalıdır. Həmçinin daha az əhəmiyyətli hesab edilən məqsədlər vacib məqsədlərin ləğv edilməsinə şərait yaratmamalıdır. Əksinə, bütün məqsədlər qarşılıqlı əlaqə müstəvisində müəyyən olunmalıdır. İmam Əl-Şatibi əsas məqsədlərin ifrat zərurətlər və əlavə məqsədlər üçün təməl olduğunu qeyd etdikdən sonra aşağıdakı qaydaları müəyyən etmişdir:

- Əsas məqsədlər ifrat zərurətlər və əlavə məqsədlər üçün təməl funksiyası daşıyır;
- Əsas məqsədlər məsələsində qarışıqlıq və anlaşılmazlıq digər iki məsələdə də xaos və nizamsızlığa səbəb olur;
- İfrat zərurətlər və əlavə məqsədlərlə bağlı qeyri-müəyyənliklər əsas məqsədlər sahəsində qeyri-müəyyənliklərə səbəb olmur;

- İfrat zərurətlər və əlavə məqsədlərlə bağlı mütləq qeyri-müəyyənlik əsas məqsədlər sahəsində qismən qeyri-müəyyənliyə səbəb ola bilər;
- Əsas məqsədlər üçün ifrat zərurətlər və əlavə məqsədlər qorunmalıdır.

Əl-Şatibi insanların başa düşməsi üçün qanunlar qəbul edərkən məqsədlərə də toxunmuşdur. Möhtərəm alim davranış standartı kimi qəbul olunan ali məqsədlərlə bağlı Allahın qanun qarşısında cavabdeh olan şəxslərdən tələb etdiklərini də müzakirə etmişdir. Məsələn, imam belə bir qənaətə gəlir ki, əgər Allahın məqsədi bizdən tələb olunan məsələlərdə ortaya çıxan çətinlikləri asanlaşdırmaqdırsa, onda insanların da əsas məqsədi öz vəzifə və öhdəliklərini yerinə yetirdikdə tarazlığı qorumaq və müsbət hərəkətlərə sadiq qalmaqdır.

Əl-Şatibiyə görə, İslam dinində qanunlar iki ifrat yanaşma arasında uzlaşmaya nail olmaq və təmkin əsasında qəbul edilir. Beləliklə, namaz, oruc, zəkat, eləcə də haramlarla bağlı öhdəliklər qanunla müəyyən olunur və konkretləşir.

Əl-Şatibinin insanların qanunlara tabe olmasına nail olmaq üçün Allahın ali məqsədləri haqqında mövqeyi belədir: "İnsanlarla bağlı İslam qanunları tamamilə universaldır və biz daxili və zahiri dünyamızda bu qanunları ali hesab etməliyik". Bununla da o, Allahın insanları fani dünya istəklərinə bağlı olmaqdan xilas etmək niyyətini açıq şəkildə diqqətə çatdırır.

Əl-Şatibi hüququn məqsədləri haqqında fikirlərini izhar etməklə yanaşı, insanların məqsədlərini də diqqət mərkəzində saxlayır. Bu keyfiyyət alimin mövzu ilə bağlı dərin biliyə malik olduğunu göstərir. İmam intuisiyaya əsaslanan dini həqiqəti təsdiq edir: "Fəaliyyətlər niyyətlərlə bir-

başa bağlıdır və məqsədlər davranışlarla əlaqəli şəkildə nəzərə alınmalıdır. Bundan əlavə, qanunları qəbul edən şəxslərin məqsədi tələb olunan çərçivədə qaydalar müəyyən edərək insanların rifahına nail olmaqdır".

Əl-Şatibi fikrini belə tamamlayır: "Məqsədlər mütəmadi olaraq müzakirə mövzusuna çevrilir. Bu mövzunun aydınlaşdırılması üçün yekun izaha ehtiyac var. İnşallah, yekun izahda konkret olaraq nəyin nəzərdə tutulduğu aydın olacaqdır". Möhtərəm imam belə bir sual da verir: "Allahın nəyi nəzərdə tutub-tutmadığını necə ayırd etmək olar?" O, Allahın məqsədlərini müəyyən etmək üçün dörd əsas üzərində durur: ilkin, aydın formada nəzərəçarpan hökmlər və qadağalar, hökmlər və qadağaları şərtləndirən amillərə ümumi bir baxış və ikinci dərəcəli məqsədlərin nəzərdən keçirilməsi.

Əl-Şatibinin məqsədlər nəzəriyyəsi onun əsərlərinin mütləq əksəriyyətində əks olunur. Həmin əsərləri oxuduqda bu məqsədlərin onun nəzəriyyəsini daha aydın və başa düşülən etdiyinin şahidi oluruq. O, məqaisid əl-şəriyyə (şəriətin məqsədləri) və onun nəticələri ilə bağlı məsələləri diqqət mərkəzində saxlamışdır. Əl-Şatibi hüquq elminin təməlinin qanunların universal olması reallığına əsaslanması ilə bağlı ciddi arqumentlər gətirmişdir. O yazırdı: "Müsəlman cəmiyyətlərində qanunlar beş əsas zərurətin, yəni din, insan həyatı, ağıl, nəsil və zənginliyin mühafizə edilməsi üçün müəyyən olunur".

Hüququn ali məqsədləri və prinsipləri İslamın əsas doktrinaları ilə yanaşı, Məkkədə nazil olan surələrdə də əks olunmuşdur. Əl-Şatibi beş əsas zərurət və onların dəlillərinin Quranın Məkkədə nazil olan surələri çərçivəsində izah olunması üçün araşdırmalar aparmışdır. İslam dini-

nin mühafizə olunması və imanın güclənməsi Quranın Məkkədə nazil olan surələrində konkret şəkildə ifadə olunur və buna görə də hər hansı nümunəyə ehtiyac yoxdur. Əl-Şatibi Quranın Məkkədə nazil olan surələrinin hüquqi prinsiplərini və universal mahiyyətini şərh və izah etmişdir.

O, Quran və sünnət də daxil olmaqla şəriətdəki müxtəlif dəlillər və qanunvericiliyin müxtəlif sahələri arasındakı əlaqənin təmin edilməsi üçün məqsədlərə əsaslan yanaşma tərzi nümayiş etdirmişdir. Onun müşahidələrinə görə, Quranın Mədinədə nazil olan surələrində gizli təfsilatlar Məkkə surələrinə, sünnət isə Qurana əsaslanır. Sünnət Quranda mövcud olan ümumi ifadələr kontekstində müəyyən nəticələr əldə etməyimizə kömək edir.

Əl-Şatibi məqsədlər anlayışından istifadə etmiş və İslam hüququnda bütün hökm və qadağaların eyni dərəcəyə malik olmadığını göstərmək məqsədilə hüquqi hökmləri əsas məqsədlər, ifrat zərurətlər və nəzərə alınmalı əlavə məqamlar kimi təsnifatlandırmışdır. Möminlər və alimlər hüquqi hökmlərin və qadağaların dərəcələrindən agah olmaq üçün bu təsnifatlandırma haqqında məlumat almalıdırlar.

Hüquqi hökmlər üsul əl-fiqh haqqında yazılmış əsərlərdə ən çox müraciət olunan mövzulardan biridir. Bu tendensiyaya ən çox V əsrdə rast gəlinmişdir. Mübah və ya icazə verilən hərəkətlərin izahı fəaliyyətlə əlaqəli hökmlərdən biridir. Üsuliyyunlar bu kateqoriyaya aid mövzulara müraciət etmişlər. Əl-Şatibi məsələyə məqsədlər nəzəriyyəsi aspektindən yanaşmışdır. Müəyyən və universal aspektlərə əsaslanan fəaliyyət və fəaliyyətsizlik arasındakı fərq maraq və məqsədlər müstəvisində nəzərə alınır.

Səbəblər və nəticələr daha çox bəşəri niyyətlərlə əlaqələndirilir, lakin ilahi niyyətləri də ehtiva edir, yəni müəyyən bir əlaqəsi olur. Əl-Şatibi məqsədlərə əsaslanan nəzər nöqtəsinə müvafiq olaraq prinsiplər və hökmlər müəyyən etmişdir. İnsanlar ancaq səbəblərə görə məsuliyyət daşıyırlar. Onlar nəticələrə cavabdeh deyillər. Nəticələr və səbəblərin əlaqəsi ilə bağlı məsuliyyəti Allah öz üzərinə götürür.

Əl-Şatibi fərdlərin nəticələri də nəzərə almalarını istəyərək yazırdı: "…əgər kimsə öz hərəkətlərinin doğuracağı nəticələr haqqında fikirləşsə, bu vəziyyət son addımı atmazdan əvvəl bir az dayanıb fikirləşmək imkanı verə bilər..." Beləliklə, insanın maraqlarına və ilahi məqsədlərə xidmət edən hər bir hərəkət yerinə yetirilməli və insanlara zərər verən fəaliyyətlərdən uzaq durulmalıdır.

## Əl-Şatibinin nəzəri görüşlərinin əsas prinsipləri

Əl-Şatibi məqsədlər nəzəriyyəsinin müəyyən prinsipləri kontekstində hüququn talil mövzusu olması faktına istinad etmişdir. Bu məsələnin əsas mahiyyəti odur ki, hüquq və ortaya çıxan hökmlər insanın maraqları müstəvisində dərk edilməlidir. Əl-Şatibiyə görə, hüquq sahəsində bütün hökmlər insanın maraqlarının qorunmasına xidmət edir. O, talil məsələsini adət-ənənələr və gündəlik fəaliyyətlər, ibadətlərlə bağlı hökmlər olmaqla iki ayrı kateqoriyada izah etmişdir.

Hüquqi hökmlərlə əlaqəli birinci yanaşma hüququn induktiv yanaşma çərçivəsində dərk edilməsinə əsaslanır. Burada Allahın ali məqsədinin insanların maraqlarına

xidmət etmək olması aşkar şəkildə hiss olunur. Əl-Şatibinin talil haqqında ümumi fikirləri onun İslam hüququnun insanların maraqları müstəvisində şərh edilməsinin doğru olduğuna inanması ilə izah oluna bilər. Maliki məzhəbinin alimlərinin böyük əksəriyyəti və Əl-Şatibiyə görə, İslam dinində ibadətlərlə bağlı hökmlərin təməl prinsipinə əsasən talildən istifadə etməkdən yayınmaq lazımdır. Əl-Şatibi İslam dinində ibadətin müxtəlif formalarına dair məqsədlərin müəyyən mətnlərdə izah edilməsi faktını inkar etməmişdir. Lakin həmin izahların kifayət qədər aydın və anlaşıqlı olmadığı qənaətinə gəlmişdir. İmam Əl-Şatibiyə görə, maraqlara əsaslanan talil təcrübəsi ibadət və onun müxtəlif formaları üçün tamamilə istisna edilməməlidir.

Əl-Şatibi yazırdı: "Gündəlik fəaliyyətlər və ənənələr, eləcə də ibadətlərlə əlaqəli hökmlər insanın maraqlarının fərqli aspektlərinin tənzimlənməsinə dair məqsədləri ehtiva edir. Əgər qeyd edilən məsələlər müxtəlif şərhlərin verilməsi üçün ümumi müzakirəyə çıxarılsa, konkret izahların verilməsi mümkün olmayacaq və bu da öz növbəsində ziddiyyətli məqamlarla səciyyələnəcəkdir". Bu cür meyarlar və dəqiq yanaşmalar hüquqi hökmlərin verilməsi ilə məşğul olan şəxslərin istiqamətləndirilməsi üçün ciddi amildir. Şübhəsiz ki, konkret təriflər, sistemləşdirmələr və spesifikasiyalar ümumi maraqlara xidmət edir.

İmam Şatibiyə görə, İslam hüququ həm xüsusi, həm də universal aspektlərə malikdir. Əl-Şatibi qeyd edirdi ki, hüququn universal aspekti hər kəsin hüquqla müəyyən olunan spesifik qaydalar qarşısında öhdəlik daşımasıdır. Əl-Qəzzali qeyd edir: "Hər hökmdə bir hikmət gizlidir və bunlar insanlar üçün xoşbəxtlik və səadət ifadə edir". Talil müəyyən metodlar və qanunlar müstəvisində və üsul əl-fiqh kontekstində nəzərə alınmalıdır. Heç kim öz şəxsi

fərziyyə və seçimi üçün sərbəst şəkildə talilə əsaslana və ya Allahın qoyduğu qaydalar haqqında mühakimə yürüdərkən öz fikir və xülyalarının təsiri altına düşə bilməz.

Peyğəmbərin səhabələri əsaslı intiusiyalarına, hüququn məqsədləri və təməl prinsipləri haqqında biliklərinə əsaslanaraq talil prosesinə cəlb olunmuşlar. Digər tərəfdən isə çox mötəbər alimlər və ilahiyyatçılar təlildən istifadə etməyin doğru olmadığına dair fikirlər irəli sürmüşlər. Bu məsələdə ən böyük tənqidçi İbn Həzm olsa da, Əl-Şatibi talilin (təlil qaydasından) tamamilə istifadə edilməməsi tərəfdarı olan Əl-Raziyə istinad etmişdir.

İslam hüququnda ilahi çağırışlara cavab verməyin təməlində insanların maraqlarının təmin olunması dayanır. Hüquqi məsələlərin hansılarının vəhy yolu ilə çatdırıldığını dərk etmək çox vacibdir. Bir daha şahid oluruq ki, hüquqi hökmlərin əsasının, mahiyyətinin müəyyən edilməsi spesifik metodlar, məhdudiyyətlər və meyarlarla sıx şəkildə bağlıdır. Bütün bunlar hüququn prinsiplərinin izah edilməsinə, Quran və sünnətin tətbiq edilməsinə həsr edilmiş müvafiq kitablarda əks olunmuşdur.

İslam hüququnun əsasını təşkil edən maddi və mənəvi mənfəətlər və məqsədlərlə bağlı araşdırmalar aparmağımız vacibdir. Müvafiq araşdırma metodları və Allahın bizə bəxş etdiyi elmdən istifadə etməklə hüquqi hökmlərin məqsədləri ilə bağlı məlumat əldə etmək üçün İslam dinində məhdudiyyət yoxdur. Buna görə də əgər biz etibarlı dəlillərə istinad edərək bir nəticəyə gəliriksə, bunu qəbul etmək lazımdır.

Müsəlman alimləri zərər və xeyir haqqında danışdıqda onlar bu dünya ilə yanaşı, axirət həyatını da nəzərdə tuturlar. Onların fayda və zərər konseptinə axirət həyatı-

na aid faydalar, səbəblər, axirət həyatına aid zərərlər, səbəblər, fani dünyaya aid faydalar, səbəblər, fani dünyaya aid zərərlər və səbəblər daxildir. Əl-Şatibi qeyd edir ki, əsl məqsədlər həyatı məhv etmir, əksinə, daha da mənalı edir. Qanunlar vasitəsilə müxtəlif hərəkətlərin yerinə yetirlməsinə müəyyən məhdudiyyətlər qoyulur. Bunun da səbəbi odur ki, insanlar müəyyən hərəkətlərə son qoymasalar, zərərli vərdişlərə başlaya bilərlər.

Fayda və zərər anlayışları müəyyən kontekstlərdə eyni zamanda istifadə oluna bilər. Belə ki, hər hansı bir hərəkət bir tərəfdən faydalı olsa da, digər tərəfdən zərərli hesab edilə bilər. Ona görə də bunların tənzimlənməsi, hansı insanlara şamil edilməsi və kimin nəzərətində olmasını müəyyən etmək üçün qanunlara ehtiyac var. Bu, universal maraqdır. İslam hüququnda bütün səviyyələrdə hər kəsin maraqlarının müdafiə olunması məsələsi aktualdır, fayda və zərər məsələsində ən kiçik nüans belə diqqətdən kənarda qala bilməz. İnsanların ümumi maraqlarının qorunması üçün müəyyən maraqların etibarsız hesab edilməsi çox nadir halda rast gəlinən məsələdir. Əl-Şatibi maraqların müxtəlif növlərini təhlil və təyin etmişdir. Möhtərəm imam İslam hüququnda münaqişələrin həll edilməsi üçün ən müvafiq hüquqi yanaşmaları təklif etmişdir.

Müsəlman alimlər insanların mənəvi və maddi rifahını təmin etmək üçün əsas olan məqsədlər, ifrat zərurətlər və ya ehtiyaclara əsaslanan maraqlar, məqsədlər və ilk iki nüansa nail olmaq üçün nəzərə alınması vacib olan əlavə məqamların əhəmiyyətli olması fikri ilə razıdırlar. Onlar, həmçinin maraqların din, insan həyatı, ağıl, nəsil və zənginlik üçün də əhəmiyyətli olduğunu təsdiq edirlər. Beş əsas zərurətin qorunmasına töhfə verən hər şeyin faydalı,

bunların əksinə olan hər bir nüansın isə zərərli olması mövzusunda da həmfikirdirlər.

Hər kəsi maraqlandıran bir məsələ var: insanlar hər hansı bir fəaliyyətin yaxşı, faydalı və ya zərərli olduğunu müəyyən edə bilərlərmi? Yoxsa bütün bunlar aşkar şəkildə qanunlarla tənzimlənməlidir? Eyni sual sxolastik teologiyada və hüquqşünaslıq elminin təməl yanaşmalarında *əl-tahsin və əl-təqbih* (təhsin və təqbih) məsələsini xatırladır. Əl-Şatibi bu məsələdə əşarilərin (əşərilərin) təsirində olmuşdur. O yazırdı: “Əgər hər hansı bir hüquqi məsələ ilə bağlı Kitabda yazılanlar və rasional dəlillər eynidirsə, ağıl ilə müqayisədə üstünlük Kitabda yazılan dəlillərə verilməlidir, çünki ağıl məsələni ancaq Kitabda əks olunan dəlillər miqyasında dərk edə bilər”. Bu fikir əşarilərin yanaşması ilə uyğunluq təşkil edir: “Əşyaların pis və yaxşı olması ağıl vasitəsilə mühakimə edilmir”.

Əşarilərin fikirləri ilə ziddiyyət təşkil edən iki cərəyan var: Mötəzilik (mötəzililik) və maturidilik. Mötəzililərə görə, xeyir və şər nəzərəçarpan anlayışlardır və qanunlarla müəyyən olunmasa da, fəaliyyət və fəaliyyətsizlik faydalı və zərərli hesab edilə bilər. Mötəzilik əqidəsinə görə, şüurlu insanlar heç bir hüquqi hökm olmasa da, yalnız ağıl vasitəsilə Allah qarşısında cavabdehlik daşıyırlar. Hüquqi hökmlər vəhylərlə təsdiq olunduğu kimi, insan ağlı ilə də təsdiq oluna bilər. Bununla belə, əşarilik nəzəriyyəsi mötəzililikdən daha geniş yayılmışdır.

Fayda və zərərlər ilahi qanunların nəticəsində üzə çıxır. İlahi vəhylərdən və əlaqəli hökmlərdən əvvəl fayda və zərər konsepti yox idi. Qurana görə, yaxşı olan hər şey faydalı, zərərli, məhvedici olan hər şey qanunsuzdur. İslamın ilk günlərindən etibarən Quranda möminlərə müraciət edilmiş və onlar doğru yola dəvət olunmuşlar. Quran-

da möminlərin ağıla zidd olan fəaliyyətlərdən yayınması istənilir və mənfi əməllər pislənilir.

Əşarilər xeyir və şərin ağıl vasitəsilə müəyyən edildiyini inkar etmişlər. Bu baxımdan əşariliyin tərəfdarları ilə mötəzililər arasında müzakirələr uzun müddət davam etmişdir. Əşarilərə görə, ağıl sayəsində peyğəmbərlərə və onların dediklərinə iman edilmiş və həmin çağırışlar həqiqət kimi qəbul edilmişdir. Möminlər İslam hüququnun insanların maraqlarını lazımi dərəcədə qoruması məsələsində heç vaxt şübhəyə düşməmişlər. İnsanlar üçün faydalı və zərərli olan maddi və mənəvi dəyərlər insan ağlı tərəfindən müəyyən oluna bilər. Lakin bu o demək deyil ki, insan ağlı qüsursuz və mükəmməldir. Əksinə, insan ağlı hər şeyi dərk etmək iqtidarında deyil.

Əl-Şatibi mütəmadi olaraq ağılın insanlar üçün faydalı və zərərli olan mənbələrin müəyyən edilməsində birbaşa rol oynamadığını bildirmişdir. Misal üçün, Allah yolunu azmış insanlara xəbərdarlıq etmək üçün peyğəmbərlər göndərmişdir. İnsanlar ağıllı olsalar da, yollarından azmamaları və zərər görməmələri üçün onlara güclü dini motivasiya lazımdır. Bu nöqteyi-nəzərdən İslam hüququnda dini maraqların qorunması prioritet məsələlərdən biridir.

Aşağıdakı sahələrdə maraqların qiymətləndirilməsi üçün ağıl istifadə oluna bilər. İslam hüquqşünaslığında mətnlərə əsaslanan şərhlərin verilməsi alimlər tərəfindən geniş istifadə olunur. Ağıl hər hansı mətndə nəzərdə tutulan marağın düzgün çatdırılmasını müəyyən etməkdə əhəmiyyətli rol oynayır. İslam hüququ, Quran və sünnətlə bağlı mətnlər haqqında yazılan kitablarda bununla bağlı çoxsaylı nümunələrə rast gəlmək olar. Nəyin yaxşı, nəyin pis olduğunu düzgün şəkildə qiymətləndirmək müvafiq hüquqi hökmlər vasitəsilə müəyyən olunan mənfəət və

zərər haqqında mənbələrə istinad edilir. Mənfəət, fayda, zərər və müsibət həmişə qarşılıqlı münasibətdə olan anlayışlar olduğu üçün uzunmüddətli müzakirələrin mövzusu olmaqda davam edir. Əl-Şatibi müxtəlif insanların maraqlarının toqquşduğu müxtəlif vəziyyətlərin nəzərə alınması üçün olduqca vacib və əhəmiyyətli qaydalar müəyyən etmişdir.

İslam dinində hüquqi siyasət anlayışı əsasən məhdud olmayan maraqların qorunmasına əsaslanır. Məhdud olmayan maraqlar sferası müsəlman millətlərin sayının artması və ehtiyaclarının çoxalması fonunda genişlənir. İslam hüququ sahəsində fəaliyyət göstərən alimlər hüquq və onun prinsiplərini əldə rəhbər tutmalı və hər bir məsələni düzgün həll etmək iqtidarında olduqlarını sübut etməlidirlər. Bu, müsəlmanların maraqlarının qorunması üçün ən müvafiq yoldur.

Quranın ərəb dilində nazil olduğunu nəzərə alsaq, hüququn ali məqsədləri hüququn prinsiplərinin çatdırıldığı ərəb dili perspektivindən nəzərə alınmalıdır. Əl-Şatibi yazılarında tez-tez vurğulayır ki, əgər kimsə İslam dinində hüquqi mətnlərdə məqsədləri dərk etmək istəyirsə, həmin şəxs ərəb dilinin qaydalarına əməl və hörmət etməlidir. O, yazırdı: "Ərəb dili… Allahın məqsədlərini dərk etməyə kömək edir".

Əl-Şatibi fəaliyyətlərlə bağlı müxtəlif hüquqi hökmlərdən bəhs edir və onlar arasındakı əlaqəyə də toxunur. O, müvafiq hesab edilən və məcburi olan hökmlərlə arzu olunmayan, qadağan edilən hökmlər arasındakı əlaqə haqqında məlumat verir. Möhtərəm imam əsas məqsədin beş vacib zərurətə ekvivalent olmasına dair fikri məqbul hesab edir. İkinci dərəcəli məqsədlər insanın arzuları və

meyilləri ilə bağlıdır, ifrat zərurətlər və əlaqəli məqsədləri ehtiva edirlər.

Əl-Şatibi induktiv üsulu hüququn məqsədlərinin müəyyən edilməsində ən güclü və vacib metodlardan biri hesab edir. Şübhəsiz ki, hüququn əsasları qəbul edilməlidir və dəlillər əminliyi təmin edən induktiv üsula əsaslanmalıdır. İslam hüququnun universal mahiyətinə istinadən deyə bilərik ki, dəlillər sadəcə bir məsələ ilə bağlı olmur, geniş müstəvidə təqdim olunur. Əl-şatibi "Əl-Muvafaqat" əsərinin ilk səhifələrindən başlayaraq induksiyanı hüququn məqsədlərinin dərk edilməsi ilə əlaqələndirmişdir. Quran və sünnətin məqsədi hüquq və hökmləri onların ortaya çıxmasına şərait yaradan situasiya əsasında dərk etməyə və ya talil anlayışını anlamağa təşviq etməkdir.

Əl-Şatibi öz iddialarını sübut etmək üçün lazım olan dəlilləri Quran və sünnəti induktiv üsulla oxumaqla tapmağa çalışmışdır. Əl-Şatibinin sübut etməyə çalışdığı dəlillər əvvəldən sona qədər induktiv üsula əsaslanmışdır. Ona görə, induktiv yanaşma hüququn məqsədlərinin sübut olunması üçün ən məqbul metoddur, çünki Allah əsas və dəyərli olan universal məqsədləri qorumaq istəmişdir. İmam Şatibi bu barədə belə yazmışdır: "Universal və məxsusi olan məqamların əks olunduğu hüquq prinsiplərini induktiv metod vasitəsilə oxumaqla sübutları əldə etmək olar". İmam daha sonra fikirlərini davam etdirmişdir: "İnduktiv metodla oxumaq sayəsində hüququn ümumi mahiyyəti və məğzi dərk edilir. Əks təqdirdə, yalnız ümumi anlayışlar qavranılır".

Əl-Şatibiyə görə, induktiv metod hüququn məqsədlərini qavramaq üçün ən vacib amildir. İnduktiv üsul vasitəsilə aydın olan bu məqsədlər İslam hüququnun əsas və universal mahiyyətini ifadə etməkdədir. Əl-Şatibi müza-

kirələri bu istiqamətdə aparır. İnduksiya İslam hüququnun universallığı və ümumi məqsədləri ilə bağlı nəticələr əldə etmək üçün mühüm əhəmiyyət kəsb edir.

## Əl-Şatibinin nəzəri görüşlərinin qiymətləndirilməsi

Əl-Şatibi İslam hüququnun məqsədlərinin tədqiq edilməsi, hüquqşünaslıq elminin təməlinin möhkəmləndirilməsi və məqsədlər nəzəriyyəsinin təkmilləşməsi sahəsinə böyük töhfələr vermişdir. Möhtərəm imam öz sələflərinin işlərindən yararlanmış və onların gəldikləri nəticələrdən bəhrələnmişdir. Əl-Şatibi insanın maraqları, istislan, maraqlara əsaslanan istihsan və mətnlərin maraqlara əsasən şərh edilməsi mövzularında Əl-Cuvayni, Əl-Qəzzali kimi alimlərin fikirlərindən təsirlənmiş və maliki məzhəbinə istinad etmişdir. Təbii ki, Allahın məqsədlərinin ortaya çıxarılmasında maliki məzhəbinin rolunu bir daha xatırlamaq lazımdır.

Əl-Şatibiyə görə, İslam hüququnun məqsədləri qəbul edilən məfhumdur. Artıq bu məqsədləri yaddan çıxarmaq və biganə qalmaq olmaz. O, İslam hüququnun məqsədlərini daha geniş müstəvidə təhlil etməyə təşəbbüs etmişdir. Onun bir çox əsərlərində məqaisid əl-şəriyyə mövzusuna rast gəlmək olar. Möhtərəm alim hüququn məqsədlərinin fiqhlə bağlı mövzularda təqdim olunmasının əhəmiyyətini də vurğulamışdır.

Əl-Şatibi insanın məqsədlərinə xüsusi diqqət ayırmışdır. Bu məsələ onun nəzəri görüşlərində yaradıcılıq və ilhamın başqa bir aspektini də səciyyələndirir. İmamın Allah tərəfindən müəyyən edilən məqsədləri təhlil etməsi

insanın maraqlarının müzakirə edilməsinə yol açmışdır. O, ilahi və bəşəri məqsədlərin əlaqələndirilməsi sahəsində çox orijinal fikirlər söyləmişdir.

Əl-Şatibinin Allahın ali məqsədlərini təhlil etməsi üsul əl-fiqh sahəsində yenilik idi. O, insanın və Allahın məqsədləri ilə bağlı məsələləri əhatəli şəkildə izah etmiş və bu məqsədlərdən xəbərdar olmağın yollarını göstərmişdir.

Əl-Şatibi İslam hüququ sahəsində nüfuzlu alimlərdən hesab olunur. O, ictihadla da əlaqəsi olan məqaisid əl-şəriyyənin rolunu və statusunu daha da möhkəmləndirmişdir.

## Nəticə
## **Məqaisid əl-şəriyyə mövzusunda araşdırmalar üçün yeni üfüqlər**

Bu tədqiqat işində toxunulan məsələlərin geniş şəkildə araşdırılmasına ehtiyac vardır. Ümid edirik ki, qəlbində elm sevgisi olan insanlar bu boşluqların doldurulması istiqamətində işlər görəcəklər və qaranlıq qalan məsələlərin aydınlaşması üçün kömək edəcəklər. Biz hüquqda ali məqsədlərin necə və nə şəkildə müəyyən edilməsi məsələsini diqqət mərkəzində saxlamalıyıq. Şəriətdəki hökmləri induksiya üsulu ilə dərk etməyə çalışmalı və məqaisid əl-şəriyyənin siyahısını daha da uzatmalıyıq. İslam hüququnda zərurətlərin hal-hazırda qəbul edilən beş zərurətlə məhdudlaşdırılmasının müvafiq olub-olmaması ilə bağlı bir daha düşünməliyik. Nəticədə, məqsədlərə əsaslanan ictihad üçün meyarların müəyyən edilməsi istiqamətində səyləri birləşdirməli və İslamda hüququn ali məqsədlərinin tədqiq edilməsinə nail olmalıyıq.

## Müəllif haqqında məlumat

Əhməd Əl-Raysuni Mərakeşin paytaxtı Rabatda yerləşən Əl-Xamis Universitetində İslam elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. O, Ədliyyə Nazirliyində işləyir, “Əl-Təcdid” qəzetinin redaktorudur və Mərakeşdə Müsəlman Alimləri Assosiasiyasının üzvüdür. Professor Raysuni əl-məqaisid mövzusunda ərəb dilində yazılmış bir neçə kitabın müəllifidir. Raysuninin kitabları müxtəlif dillərə tərcümə olunmuşdur. O, hal-hazırda Məhəmməd Əl-Xamis Universiteti nəzdində fəaliyyət göstərən Humanitar Elmlər Kollecində üsul əl-fiqh və məqaisid əl-şəriyyə ilə bağlı dərslər tədris edir.

**BİFİ-nin silsilə nəşrlərinə** müvafiq kitabın əsas məğzinin qismən yığcam formada və yenidən dərc edilməsi daxildir. Bu nəşrlər oxuculara müxtəsər şəkildə təqdim edilir. Yığcam və sadə formatda nəşr edilən kitablarda orijinal materiallardan çox diqqətli şəkildə seçilmiş və redaktə edilmiş cümlələr əks olunur. Kitabların dili səlis və aydındır. Burada əsas məqsəd oxucularda mövzuya qarşı maraq oyatmaq və orijinalı tədqiq etməyə yönəltməkdir.

İslam dininin ilk dövrlərinin sona çatması fonunda müsəlman alimlərində belə bir düşüncə formalaşmışdır ki, müsəlmanların gündəlik həyat və fəaliyyətləri ilə İslamın prinsipləri və doktrinaları arasında fərqlər yaranmağa başlayır. Həmin alimlərin düşüncəsinə görə, müsəlmanların Qurana olan bağlılığının yenidən gücləndirilməsi üçün ən münasib metod İslam dininin məqsədlərinin yenidən diqqət mərkəzində saxlanılmasıdır. Həmçinin İslam hüququnun və ya şəriətin müddəalarının səbəblərinin müəyyən edilməsi də vacib bir məqam kimi irəli sürülmüşdür. Alimlərin qənaətinə görə, İslam hüququnda hər bir məsələ yerinə yetirilməsi zəruri olan funksiyanı, həyata keçirilməli olan məqsədi, gizli və ya aşkar olan məramları ehtiva edir. Bütün bunlar da öz növbəsində müsəlmanların haqq yolundan sapmalarının qarşısını alır. Təbii ki, bütün bu məsələlər və ali məqsədlər müəyyən dövrləri əhatə edir, Quran və sünnətdə açıq şəkildə ifadə olunmuşdur.

Bu kitab İslam hüququnun məqsədləri ilə bağlı mühüm nəzəri görüşlərin, eləcə də məqsədlərə əsaslanan hüquq elminin atası sayılan İmam Əbu İshaq Əl-Şatibinin tədqiqatlarının müxtəlif aspektlərdən təqdim edilməsi baxımından olduqca yeni bir işdir. Bundan əlavə, müəllif Əl-Şatibinin araşdırmaları haqqında ümumi və əhatəli məlumat da verir. Nəticədə, möhtərəm İmamın həyatı, düşüncə tərzi və metodları haqqında yeni və faydalı biliklər tədqim edilir.

**DR. TAHA C. ƏL-ÜLVANİ, PREZIDENT GSISS (ABŞ)**
Əl-Raysuni Əl-Şatibinin induktiv metodu ilə bağlı görüşlərini təqdim edir və bu mövzunun əhəmiyyətini bir daha diqqətə çatdırır. Müəllifin müzakirələrində Quranın və sünnətin dərk edilməsi istiqamətində talil mövzusu və İslam hüququnun və hökmlərinin müəyyən olunması müstəvisində ciddi və əsaslı yanaşmalar əks olunmuşdur.

**PROFESSOR ZƏKİ BƏDƏVİ, SABİQ DEKAN, MÜSƏLMAN KOLLECİ**
Bu kitab Əl-Şatibinin fikirlərinin öyrənilməsi baxımından dəyərli mənbədir. Mürəkkəb bir mövzu həm mütəxəssislərin, həm də digər oxucuların başa düşməsi üçün sadə dildə təqdim olunmuşdur. Müəllif bu sahədə mötəbər bir alimdir və bu kitab da İslam hüququ sahəsində ingilis dilində çox vacib mənbədir.

Beynəlxalq İslam
Fikri İnstitutu